www.amu.edu.az

# TƏBİB

Təsisçi: Azərbaycan Tibb Universiteti — Qəzet 1933-cü ildən çıxır — №-11 (1794) 14 iyun 2024-cü il




## Nobel mükafatçısı Əziz Sancar universitetimizdə mühazirə oxuyub

**Dünya şöhrətli alim savadlı nəsil yetişdirmək üçün gənclərdə elmə maraq oyatmağın zəruriliyini vurğulayıb**

səh. 2

### Q indeksli jurnallarda məqalə çapına görə mükafat veriləcək

səh. 2

### “İctimai sağlamlıq” adlı jurnal işıq üzü görüb

səh. 8

### Əməkdaşlarımız Litva universitetində olublar

səh. 5



### ATU ilə Təhsil Tələbə Krediti Fondu arasında memorandum imzalanıb

Təqaüdlərdən daha çox tələbənin yararlanması təmin ediləcək

səh. 2

### Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə xeyriyyə aksiyaları təşkil olunub

səh. 6

### Parkinson xəstəliyi və onun reabilitasiyası

*Erkən reabilitasiya prosesi xəstəni uzunmüddətli əlillikdən azad edir*

səh. 7



### Tələbələrin doğma təşkilatı

Gənclərin sosiallaşması və istedadlarının üzə çıxarılmasında Tələbə Həmkarlar İttifaqı Komitəsinin böyük rolu var

səh. 4

**Azərbaycan Tibb Universitetində buraxılış üzrə Dövlət Attestasiya komissiyalarının sədrləri ilə görüş keçirilib. Görüşdə ATU-nun rektoru, professor Gəray Gəraybəyli 2023/2024-cü tədris ilində buraxılış Dövlət Attestasiyasına hazırlıq işləri ilə bağlı ətraflı məlumat verib.**

## Buraxılış Dövlət Attestasiyasına hazırlıq işləri geniş tərkibdə müzakirə olunub



Bu istiqamətdə görülən işləri qənaətbəxş qiymətləndirən rektor, imtahanların mütəşəkkil keçirilməsi üçün kollektiv qarşısında duran vəzifələri bir daha diqqətə çatdırıb. O, imtahan sessiyasının mövcud qaydalara uyğun təşkil edilməsi, tələbələrin biliyinin iki mərhələli qiymətləndirilməsində şəffaflığın və obyektivliyin tam təmin olunmasının vacibliyini vurğulayıb.

İclasda çıxış edən Tədris işləri üzrə prorektor, professor Sabir Əliyev keçiriləcək imtahanlarda bilik və bacarıqların yoxlanılması məqsədilə istifadə olunacaq qiymətləndirmə alətləri barədə məlumat verib.

Tədris departamentinin rəhbəri, dosent Kamandar Yaqubov sessiyanın təşkili ilə bağlı zəruri məsələləri iclas iştirakçılarının nəzərinə çatdırıb. O, universitet rektorunun təşəbbüsü ilə 2020-ci ildə İctimai səhiyyə fakültəsinin tərkibində “Tibb bacısı işi” və “Fizioterapiya və tibbi reabilitasiya” ixtisaslarının yaradıldığını xatırladıb. Qeyd edib ki, bu tədris ilində həmin ixtisaslardan ilk buraxılış olacaq. Buraxılış kursun imtahanlarının iyunun 24-də yekunlaşması nəzərdə tutulub. 28 iyunda isə “Məzun günü” keçirilməsi planlaşdırılır.

Görüşdə Dövlət Attestasiya komissiyalarının fakültələr üzrə sədrləri - Elmi-Tədqiqat Mamalıq və Ginekologiya İnstitutunun direktoru, professor, tibb üzrə elmlər doktoru Cəmilə Qurbanova, Milli Onkologiya Mərkəzinin baş direktorunun müavini, tibb üzrə elmlər direktoru Fuad Quliyev, Milli Onkologiya Mərkəzinin baş direktorunun elmi işlər üzrə müavini, professor, tibb üzrə elmlər doktoru Murad Məmmədov, Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun Stomatologiya və üz-çənə cərrahiyyəsi kafedrasının dosenti, tibb üzrə fəlsəfə doktoru Lalə Quliyeva, “Zeytun pharmaceuticals” MMC-nin baş mütəxəssisi, biologiya üzrə fəlsəfə doktoru Rüstəm Rüstəmbəyov və Milli Müdafiə Universiteti rektorunun elm üzrə müavini, Hərbi Elmi-Tədqiqat İnstitutunun rektoru, general-mayor Arif Həsənov, o cümlədən fakültə dekanları iştirak ediblər.

# Nobel mükafatçısı Əziz Sancar universitetimizdə mühazirə oxuyub

**Dünya şöhrətli alim savadlı nəslin yetişdirmək üçün gənclərdə elmə maraq oyatmağın zəruriliyini vurğulayıb**

Ölkəmizdə səfərdə olan dünya şöhrətli alim, Nobel mükafatı laureatı, professor Əziz Sancar Azərbaycan Tibb Universitetində olub. ATU-nun rəhbər şəxsləri ilə keçirilən görüşdən sonra professor Əziz Sancar universitetin tələbə və müəllim heyəti qarşısında mühazirə ilə çıxış edib.






Görüşdə ATU-nun rektoru, professor Gəray Gəraybəyli qonağa universitetin yaranma tarixi, strukturu, tədris proqramı və təhsil prosesi barədə ətraflı məlumat verib. O artıq 90 yaşını geridə qoyan qocaman universitetin Azərbaycanda yüksək ixtisaslı həkimlərin, elmi araşdırmaçıların yetişdirilməsində böyük rolu olduğunu vurğulayıb. Rektor G.Gəraybəyli dünya şöhrətli alimin ATU-da qonaq olmasını universitet kollektivi, tələbələr və gənc tədqiqatçılar üçün mühüm hadisə kimi dəyərləndirərək, Əziz Sancara təşəkkürünü çatdırıb.

Tədris Onkoloji Klinikanın direktoru və Onkologiya kafedrasının müdiri, akademik Əhliman Əmiraslanov tanınmış alimi salamlayaraq ölkəmizdə elmin inkişafı istiqamətində dövlət səviyyəsində görülən işlərdən danışıb. Təhsilin və səhiyyənin bütün istiqamətləri üzrə müvəffəqiyyət qazanmaq üçün elmi-tədqiqatların önəmini vurğulayıb.

Nobel mükafatçısı, ABŞ-ın Şimali Karolina Universitetinin Biokimya və biofizika fakültəsinin professoru Əziz Sancar ATU-da olmaqdan məmnunluğunu ifadə edib. O, universitetdə mövcud təhsil prosesi, tələbələrin və rezidentlərin elmi tədqiqatlar aparması üçün yaradılmış şəraitlə maraqlanıb. Dünya şöhrətli alim savadlı nəslin yetişdirilməsi üçün gənclərdə elmə maraq oyatmağın, fizika, kimya, biologiya və texnologiya sahələrini təşviq etməyin əhəmiyyətindən danışıb.

Sonra Nobel mükafatçısı universitetin akt zalında tələbə və müəllim heyəti üçün "Xərçəng xəstəliyinin müalicəsində EdU-nun (5-ethynyl-2'-deoxyuridine) tətbiqi" mövzusunda mühazirə oxuyub. Mühazirədə EdU-nun insan genomuna təsiri, mədəaltı vəzin, mərkəzi sinir sistemi xərçənginin müalicəsində effekti ilə bağlı elmi araşdırmaların nəticələrinə istinad olunub. Sonda professor tələbə və müəllimlərin çoxsaylı suallarını cavablandırıb.

Qeyd edək ki, Əziz Sancar Türk dünyasında təbiət elmləri üzrə Nobel mükafatına layiq görülmüş yeganə alimdir. O, 2015-ci ildə DNA təmiri sahəsində araşdırmalarına görə kimya üzrə Nobel mükafatını alıb. ABŞ-da gen mühəndisliyi sahəsini inkişaf etdirən azsaylı alimlərdən biri olan Ə.Sancar ümumilikdə biofizika və biokimya üzrə bir neçə mühüm kəşfin müəllifidir. Onun icad etdiyi elmi metodlar gen mühəndisliyi və xərçəng xəstəliyinin müalicəsi sahəsində geniş imkanlar açır.

# ATU ilə Təhsil Tələbə Krediti Fondu arasında memorandum imzalanıb

**Azərbaycan Tibb Universiteti ilə Təhsil Tələbə Krediti Fondu arasında əməkdaşlıq memorandumu imzalanıb. Müqaviləyə əsasən, tərəflər ATU tələbələrinin Fondun təqdim etdiyi təqaüd proqramlarına qoşulması, eyni zamanda digər proqramlarda iştirakına dəstək məqsədilə müştərək layihələrin icrası istiqamətində əməkdaşlıq edəcəklər.**

Sənədi ATU-nun rektoru, professor Gəray Gəraybəyli və Fondun İdarə Heyətinin sədri Araz Paşayev imzalayıblar. Memorandumun məqsədi ATU ilə əməkdaşlıq və tərəfdaşlıq münasibətlərini təmin etməklə təhsil tələbə kreditləri haqqında məlumatların daha geniş auditoriyaya çatdırılmasını, təqaüdlərdən daha çox tələbənin yararlanmasını təmin etməkdir.

Professor Gəray Gəraybəyli tələbələrə təqdim edilən təqaüdün təhsilin inkişafı üçün ciddi dəstək olduğunu vurğulayıb. Təhsil kreditlərinin tələbələri stimullaşdırdığını, akademik göstəricilərini yüksəltməyə müsbət təsir etdiyini bildirib. Rektor bu memorandumun qarşılıqlı əməkdaşlığın geniş spektrlərini əhatə edəcəyini, tələbələrin və valideynlərin təhsil tələbə kreditləri və güzəştləri haqqında daha düzgün məlumatlanmasına səbəb olacağını vurğulayıb.

A.Paşayev Fondun fəaliyyət istiqamətləri barədə məlumat verərək hazırda 200-dən çox ali, orta ixtisas və kolleclə əməkdaşlıq etdiklərini bildirib. ATU ilə əməkdaşlığın dairəsini genişləndirmək məqsədilə imzalanan bu sənədin hər iki tərəf üçün müsbət nəticələr doğuracağını qeyd edib.



Memorandum çərçivəsində tələbə və valideynlərin məlumatlılığının artırılması məqsədilə infosessiyalar, müxtəlif formatda tədbirlərin təşkil olunacağı diqqətə çatdırılıb.

# Universitetimiz əczaçılıq sahəsində əlaqələrini genişləndirir

**Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyli Ərzincan Universitetinin Tibb fakültəsinin nümayəndə heyəti ilə görüşüb.**

Tibb fakültəsinin Farmakologiya şöbəsinin əməkdaşları ilə görüşdə rektor ATU-nun fəaliyyəti, tətbiq edilən yeniliklər, tədris planları haqqında danışıb. İki universitet arasında əczaçılıq üzrə əməkdaşlıq perspektivləri, əlaqələrin gücləndirilməsinin əhəmiyyəti haqqında fikirlərini bölüşüb.

Professor Suleyman Halis ATU-da farmakologiya ixtisası üzrə aparılan elmi işlərin istiqaməti, burada tədqiqatçıların keyfiyyətli araşdırmaları üçün yaradılan şəraitlə tanış olduğunu bildirib. O, ATU-dakı mövcud infrastrukturun dünya miqyaslı tədqiqatlar aparılmasına imkan verdiyini



qeyd edib, iki universitetin müvafiq şöbələri arasında birgə elmi məqalələr və layihələrin icrası istiqamətində fəaliyyətə başlanılacağını söyləyib.

Görüşdə ATU-nun Elmi işlər üzrə prorektoru, professor Rauf Bəylərov, Tədris Departamentinin müdiri, dosent Kamandar Yaqubov, Əczaçılıq fakültəsinin dekanı, dosent Fərəh Mədətli, Ərzincan Universitetinin Farmakologiya şöbəsinin professoru Durdu Altuner, dosentlər Bahadir Süleyman və Renad Məmmədov iştirak ediblər.

**İstənilən ölkənin alim və tədqiqatçılarının mötəbər elmi platformalara çıxış əldə etməsi onların dünya elminə inteqrasiyasını sürətləndirir. Belə çıxış üsullarından biri də elmi tədqiqatların nüfuzlu beynəlxalq jurnallarda çap olunmasıdır.**

# Q indeksli jurnallarda məqalə çapına görə mükafat veriləcək

Azərbaycan Tibb Universitetinin (ATU) əməkdaşlarının elmi tədqiqatlarının “Scopus” və “Web of Sciences” indeksli ciddi nəşrlər tərəfindən çap olunmasına xüsusi diqqət verilir. Məlumdur ki, belə məqalələrin hazırlanması və tərtibi ilə bağlı dəqiq standartlar var. “Scopus” və “Web of Science” bazasında ən əhəmiyyətli ölçülərdən biri olan Q (kvartil) göstəricisi məlumat bazalarında nəşrin müvafiq indeksləşdirmə kateqoriyası üzrə populyarlıq səviyyəsini göstərir. Bu indeks üzrə elmi nəşrlər təxminən 4 qrupa bölünür. ATU-nun Elmi Şurasının qəbul etdiyi qərar məhz bu göstərici üzrə jurnallarda məqalə çap edən əməkdaşların stimullaşdırılmasına yönəlib. Belə ki, ATU-nun rektoru, professor Gəray Gəraybəylinin sədrliyi ilə keçirilən Elmi Şuranın iclasında məqaləsini Q indeksli nüfuzlu beynəlxalq jurnallarda çap etdirən əməkdaşların mükafatlandırılmasına dair qərar qəbul edilib. Qərara əsasən, Q1 indeksli jurnallarda məqalələrin çapına görə - 3000 manat; Q2 indeksi üçün - 2000 manat; Q3 indeksi üçün - 1000 manat və Q4 indeksli jurnallarda məqalə dərc etdirən müəllifə 500 manat məbləğində mükafat veriləcək. Qəbul edilən mükafatlandırma sistemi ATU-nun professor-müəllim heyəti arasında beynəlxalq standartlara uyğun orijinal elmi əsərlərin sayının artmasına, onların elmi fəaliyyətinin inkişafına müsbət təsir göstərəcək. Bu, həmçinin ATU-da aparılan tədqiqatların nəticələrinin daha geniş elmi dairələrə yayılmasına, universitet əməkdaşlarının akademik məhsuldarlıq səviyyəsinin dünya miqyasında dəyərləndirilməsinə imkan yaradacaq.

# SABAH qrupları ilə bağlı təqdimat keçirilib

**Elm və Təhsil Nazirliyinin nümayəndələri ATU-da SABAH qrupları ilə bağlı bakalavriat səviyyəsində 2024/2025-ci tədris ilinə qəbulla əlaqədar tələbələr üçün infosessiya keçirib.**

Tədbiri giriş nitqi ilə açan ATU-nun Tədris və müalicə işləri üzrə prorektoru, professor Sabir Əliyev universitetin hazırkı fəaliyyəti haqda məlumatı və əldə olunmuş nailiyyətləri qonaqların nəzərinə çatdırıb. O bildirib ki, universitetimiz nüfuzuna görə respublikada sayılıb-seçilən elm-tədris mərkəzlərindən biridir: “Artıq neçə illərdi ki, 600-dən yuxarı bal toplayan tələbələrin böyük əksəriyyəti - ildə təxminən 350-450 nəfər bizim universiteti seçir. Hər il Prezident təqaüdçülərinin böyük bir qismi bizim payımıza düşür. Bu gün ATU-nun beynəlxalq akkreditasiya təcrübəsi var. Təkcə son dövrləri götürsək, yerli və beynəlxalq universitetlərin reytinqlərində iştirakımız və eləcə də keçilən bir sıra müxtəlif mərhələlərdə qlobal layihə və proqramların yerinə yetirilməsi universitetimizə böyük üstünlüklər qazandırıb. ATU hazırda dünyanın ali tibb təhsili üzrə 100-ə yaxın, qardaş Türkiyənin isə əksər universitetləri ilə səmərəli əməkdaşlıq edir. Azərbaycan tibb elminin müasir dünya tibb elminə inteqrasiyasında universitet alimlərinin inkişaf etmiş ölkələrin aparıcı elmi mərkəzlərinə dəvəti, habelə beynəlxalq konfrans və simpoziumlarda iştirakı hörmətli rektorumuz, professor Gəray Gəraybəylinin diqqət mərkəzindədir. Bu baxımdan, tədrisin keyfiyyətinin yüksəldilməsi daim universitet rəhbərliyinin qarşısında duran əsas məsələlərdən biri olub”.

Elm və Ali Təhsil üzrə Dövlət Agentliyinin SABAH qrupları layihəsi İcra Komitəsinin rəhbəri Elza Səmədova çıxış edərək, bu qruplara qəbul proseduru barədə zəruri məlumatları tələbələrin diqqətinə çatdırıb. SABAH qruplarının yaradılmasının əhəmiyyətini açıqlayan komitə rəhbəri əlavə edib ki, tibb təhsili üzrə təqdim olunan bu proqramın Naxçıvan Dövlət Universitetində tətbiq edilməsi məhz bölgələrin inkişafı məqsədilə həyata keçirilir. Ona görə də NDU-da peşəkar tibb kadrlarının hazırlanması, maddi-texniki bazanın gücləndirilməsi, yeni tədris korpusunun tikilməsi, araşdırma tədris klinikasının fəaliyyətinin təmin olunması qarşıda duran vacib məsələlərdəndir.

O bildirib ki, universitetlərdə SABAH qruplarının fəaliyyəti dünyanın qabaqcıl təcrübəsinin öyrənilməsinə xidmət edir. Bu qruplar elmin müxtəlif sahələrində olduğu kimi, tibbin də müəyyən ixtisası üzrə peşəkar mütəxəssis olmaq istəyən hər bir tələbəyə yeni imkanlar açacaq. Qruplara qəbul olunan tələbə oxuduğu ixtisasın ən yüksək səviyyədə tədrisinin təşkil olunduğu ali təhsil müəssisəsinə köçürüləcək. Həmin qruplara da keyfiyyətli tədris bacarığı ilə seçilən müəllimlər dərs deyəcək. Başqa sözlə, müəyyən ixtisas üzrə ən yaxşı tələbələr və müəllimlər vahid məkana gətiriləcək. SABAH qruplarında təhsil alan tələbələr üçün xüsusi proqram əsasında tədris təşkil ediləcək. Bu zaman ingilis dilinin və əsas fənlərin tədrisinə əhəmiyyətli yer veriləcək. Təhsil müddətində tələbələrin şirkət, müəssisə rəhbərləri, eləcə də ictimaiyyət nümayəndələri və rəsmi şəxslərlə görüşlərinin təşkili də planlaşdırılıb. Bütün bunlar SABAH qruplarında təhsil alan tələbələrin gələcək karyera imkanlarını əhəmiyyətli dərəcədə genişləndirəcək.

Təqdimatda bildirilib ki, SABAH qruplarının üstünlükləri tələbələrdə böyük maraq doğurub. Burada tələbələrin seçimi xüsusi qaydalar əsasında həyata keçirilir. Müəllimlərin seçimi zamanı isə onların tədris təcrübəsi, tədris etdiyi fənn üzrə mövcud ədəbiyyatla tanışlığı, müasir tədris metodikası və texnologiyalardan istifadə edib-etməməsi, ümumi dünyagörüşü, xarici dil bilməsi, auditoriyanı diqqət mərkəzində saxlamaq üçün hansı üsullardan istifadə etməsi və s. kimi məsələlərə xüsusi diqqət yetirilir. Ali məktəbdə ödənişli və ya dövlət hesabına oxumasından asılı olmayaraq, SABAH qruplarında təhsil alan tələbələrə xüsusi təqaüd verilir. İmkansız və aztəminatlı tələbələr isə yataqxana və yeməklə təmin olunur.

Qeyd olunub ki, hazırda ölkəmizin 7 ali təhsil müəssisəsində SABAH qrupları fəaliyyət göstərir. 2024/2025-ci tədris ilində Naxçıvan Dövlət, Sumqayıt Dövlət və Qarabağ universitetlərində də bakalavriat səviyyəsində qəbul elan ediləcək.

Bildirilib ki, SABAH qruplarına tibb ixtisası üzrə qəbul 3 mərhələdə - 50 məntiq və 50 xarici dildən olmaqla 100 sualdan ibarət imtahanlar keçiriləcək. Bu mərhələləri uğurla başa vuranlar sonda müsahibəyə dəvət olunacaq. SABAH qruplarına elektron ərizə qəbulu isə www.sabah.edu.az internet saytı vasitəsilə həyata keçirilir.

Təqdimatdan sonra SABAH qruplarının fəaliyyətini özündə əks etdirən tanıtım filmi nümayiş olunub. Sonda Elm və Təhsil Nazirliyinin nümayəndələri tələbələri düşündürən çoxsaylı sualları cavablandırıblar.





**Universitetimiz Rusiyanın Sankt-Peterburq şəhərində uşaq sağlamlığının qorunmasına həsr edilmiş beynəlxalq konqresdə təmsil olunub.**



# ATU-nun prorektoru beynəlxalq konqresdə çıxış edib

Dünyanın 15 ölkəsindən 2500-dən çox nümayəndənin iştirak etdiyi tədbirin açılışında Sankt-Peterburqun vitse-qubernatoru Oleq Erqaşev, Sankt-Peterburq Pediatriya Universitetinin rektoru, Rusiyanın baş neonatoloqu Dmitri İvanov və digərləri ilə yanaşı, ATU-nun Elmi işlər üzrə prorektoru, professor Rauf Bəylərov da salamlama nitqi ilə çıxış edib.

Konqresdə neonatologiya, pediatriya, uşaq cərrahiyyəsi və digər uyğun tibbi ixtisaslar üzrə ən mühüm məsələlər müzakirə olunub. “Sağlam uşaqlar ölkənin gələcəyidir” şüarı ilə keçirilən tədbirdə Azərbaycanla yanaşı, Belarus, Özbəkistan, Çin, Türkiyə, Səudiyyə Ərəbistanı, İraq, Yəmən və digər ölkələrdən mütəxəssislər iştirak edib. Üç gün ərzində iştirakçılar profilaktik səhiyyə, uşaqlar arasında infeksion xəstəliklərin önlənməsi, pediatrik nefrologiyanın yenilikləri, uşaq ölümlərinin əsas səbəblərinin aradan qaldırılması kimi önəmli məsələlər barədə fikir mübadiləsi apariblar. Konqres çərçivəsində təşkil olunan sessiyalarda 500-dən çox şifahi, 39 poster-təqdimat baş tutub, təlim və simpoziumlar, master-klaslar keçirilib.

# Tələbə Elmi Cəmiyyəti növbəti tədris ilində görüləcək işləri müzakirə edib

**Azərbaycan Tibb Universiteti Tələbə Elmi Cəmiyyətinin Şurası növbəti toplantısını keçirib. TEC-in elmi rəhbəri, tibb elmləri doktoru Müşfiq Həsənov bildirib ki, toplantını keçirməkdə məqsəd TEC-in Şurasının iş planına uyğun olaraq, növbəti tədris ilində görüləcək işləri müzakirə etmək, bu tədris ilində əldə olunmuş nəticələr, nailiyyətlər, çatışmazlıqlar barədə fikir mübadiləsi aparmaqdır.**



M.Həsənov qeyd edib ki, ötən ilin sentyabrında tədris ili başlayandan bütün fakültələr üzrə Tələbə Elmi cəmiyyətlərinin rəhbərləri, fakültə dekanları, elmi cəmiyyətlərin sədrləri və fakültə şurasının üzvləri müştərək bir fəaliyyət nümayiş etdiriblər: “Bu müddət ərzində bir çox tədbirləri yüksək səviyyədə keçirə bildik. İlk növbədə fakültə konfransları üçün fakültə nəzdində olan kafedralarda tələbə seçimi başladı. Onlara elmi işlər verildi. Həmin işlər kafedralarda dinlənildi və öz aktuallığı, praktik əhəmiyyəti ilə seçilənlər fakültə konfranslarında iştirak etmək hüququ qazandı, təqdimat verildi. Əvvəlki illərdən fərqli olaraq, ATU TEC-in yekun konfransını universitetimizin rektoru, professor Gəray müəllimlə Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus müəllimin birgə razılığı ilə müştərək keçirmək qərarı verdik. Mayın 22-23-də Naxçıvan Dövlət Universitetində tibb tələbələri və gənc tədqiqatçıların elmi-praktik konfransı baş tutdu. Bu konfrans tələbələrimiz üçün çox faydalı oldu. Belə ki, yeni arenada keçirildi və yeni münasibətlərin yaranmasına səbəb oldu. O cümlədən müştərək elmi-tədqiqat işlərinin aparılması üçün bir zəmin yarandı”.

M.Həsənov gələcəkdə Cəmiyyətin fəaliyyətinin daha da genişləndirilməsi, tələbələrin həm TEC-ə, həm də startap layihələrinə cəlb edilməsi və digər məsələlərə də toxunub.

Sonra TEC-in fəaliyyət səmərəliliyinin artırılması üçün müzakirələr aparılıb və bir sıra təkliflər səsləndirilib.

Tədbirin sonunda məzun olacaq fakültə TEC sədrlərinə təşəkkürnamələr, Naxçıvan Dövlət Universitetində təşkil olunan konfransda iştirak etmiş tələbələrə isə iştiraketmə vəsiqələri təqdim olunub.

# Zuğulbada beynəlxalq yubiley konqresi baş tutub




**Bu günlərdə Otorinolarinqoloqların Avrasiya Assambleyasının 10 illiyinə həsr olunmuş otorinolarinqologiya, onkologiya, plastik və üz-çənə cərrahiyyəsi, surdologiya ixtisaslarının aktual problemlərini əhatə edən beynəlxalq yubiley konqresi keçirilib.**

Azərbaycan Tibb Universitetinin dəstəyi ilə Xəzər dənizinin sahilində yerləşən Zuğulbanın mənzərəli guşəsində – “Xəzri” istirahət və sağlamlıq mərkəzində düzənlənən konqresdə Avropa, Türkiyə, Rusiya, Belarus, Özbəkistan, Qazaxıstan, Tacikistan, Birləşmiş Ərəb Əmirlikləri və Səudiyyə Ərəbistanının nümayəndə heyətləri iştirak edib.

ATU-nun Otorinolarinqologiya kafedrasının müdiri, professor Vəfa Pənahianın sözlərinə görə, otorinolarinqologiya və baş-boyun cərrahiyyəsi, onkologiya, neyrocərrahiyyə, üz-çənə, plastik cərrahiyyə, surdologiya, səhiyyənin təşkili ixtisasları üzrə 100-ə yaxın xarici, 150-dən çox yerli mütəxəssisin qatıldığı konfransda müasir protokollara cavab verən tibbi yeniliklərə dair müzakirələr aparılıb. Belə ki, tibbi yeniliklərin mənimsənilməsi və təcrübə mübadiləsi, burunun funksional və estetik problemlərinin həllində yeni üfüqlərin hədəflənməsi, həmçinin baş-boyun nahiyəsinin şişlərində və hərbi travmalarında, bu və digər səbəblərdən eşitmə qabiliyyəti məhdudiyyətlərində tətbiq olunan müasir müalicə üsullarının müzakirəsi maraqla qarşılanıb.



Konqresə DİN-in Respublika Hospitalının Otorinolarinqologiya şöbəsinin rəisi, tibb elmləri doktoru Kamil Yusifov sədrlik edib. Səhiyyə Nazirliyi tərəfindən müvafiq kredit balı ilə akkreditasiya edilən 2 günlük zəngin elmi proqramın iştirakçıları Xəzər dənizinin füsunkar mənzərəsi ilə təmasda olaraq mənəvi istirahətə də vaxt ayıra biliblər.

# Tələbələrin klinik bacarıqları yoxlanılıb



Başa vurduğumuz yaz semestrinin ardınca Obyektiv Strukturlaşdırılmış Klinik İmtahanlara (OSKİ) start verilib.

Tibb və sağlamlıq elmləri təhsili kafedrasında tələbələr artıq 2 ildir ki, semestrin sonunda müvafiq imtahan verirlər. 24 may tarixində də semestri bitirən I kurs Hərbi tibb fakültəsi və II Müalicə-profilaktika fakültəsinin bəzi əcnəbi tələbələri olmaqla ümumilikdə 70 nəfərin semestr ərzində öyrəndiyi klinik bacarıqları OSKİ vasitəsilə qiymətləndirilib. İmtahan prosesini İctimai səhiyyə fakültəsinin dekanı, dosent Qalina Qəniyeva, II MPF dekan müavini, dosent Sevinc Məhərrəmova, Hərbi tibb fakültəsinin tədris məsləhətçisi Əbdülqasım Cəfərov, eləcə də universitetimizdə qonaq olan Ege Universitetinin Tibb bacılığı fakültəsinin Tibb bacılığında pedaqogika kafedrasının müdiri, dosent Fatma Orgun izləyiblər.

* * *



Stomatologiya fakültəsinin rəhbərliyi 2023/2024-cü tədris ili üzrə klinik imtahanların gedişini izləyib. Fakültənin dekanı, dosent Elmira Əliyeva xatırladıb ki, digər fakültələrdə olduğu kimi, stomatologiya üzrə də dövlət imtahanları OSKİ metodu ilə aparılır.

Sessiya zamanı 236 tələbə bacarıq imtahanlarında özünü sınayıb. İmtahanın yüksək səviyyədə keçirilməsini təşkil etmək məqsədilə əvvəlcədən komissiyalar yaradılıb.

OSKİ imtahanlarında hər tələbəyə bir bacarıq üzrə 4 dəqiqə vaxt ayrılıb. Tələbə ümumilikdə 10 bacarığa rotasiya üsulu ilə 40 dəqiqə sərf edir.

* * *



İyunun 5-də Tədris Cərrahiyyə Klinikasında Hərbi tibb fakültəsi tələbələrinin klinik bacarıq imtahanı keçirilib. İmtahanda 40 nəfər kursant iştirak edib. Onların terapiya və hərbi terapiya fənni üzrə semestr ərzində mənimsədiyi klinik bacarıqlar OSKİ vasitəsilə yoxlanılıb və yüksək qiymətləndirilib.

Qeyd edək ki, OSKİ imtahanları beynəlxalq standartlara cavab verən bir sınaq üsuludur və tibb təhsilində də uğurla tətbiq olunur.

# Tələbələrin doğma təşkilatı

## Gənclərin sosiallaşması və istedadlarının üzə çıxarılmasında Tələbə Həmkarlar İttifaqı Komitəsinin böyük rolu var

**ATU-nun ictimai həyatında yaxından iştirak edən Tələbə Həmkarlar İttifaqı Komitəsi (THİK) uğurlu fəaliyyəti ilə seçilir. THİK ötən dövr ərzində dövlət gənclər siyasətinin əsas prinsiplərinin reallaşması istiqamətində kompleks tədbirlər həyata keçirib və bu gün də fəaliyyətini qeyd olunan istiqamətdə davam etdirir.**

Son vaxtlar dr. Qoşqar İsmayılovun rəhbərliyi ilə təşkilatda ciddi uğurlara imza atılıb və təqvim planı üzrə mühüm işlər həyata keçirilib. Komitə sədri bizimlə söhbətində bu barədə ətraflı bəhs etdi:

“Müasir dövlətçiliyimizin memarı Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra ölkəmizdə dövlət quruculuğu prosesində həlledici dönüş baş verdi və gənclərə diqqət əsas vəzifələrdən birinə çevrildi. Bununla da ölkəmizdə gənclər hərəkatının əsası qoyuldu ki, bu da Azərbaycan gəncliyinə dövlət səviyyəsində verilən ən böyük qiymət idi. Bu uzaqgörən siyasət cənab Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Hazırda THİK-in fəaliyyəti universitet rəhbərliyinin dəstəyi ilə güclənib və tələbələrin ittifaqa üzvlük prosesi sürətlənib. Tələbələrin ictimai həyatda aktivliyini və mənəvi keyfiyyətlərini yüksəltməyi qarşısına bir məqsəd kimi qoyan təşkilatımız onların sosial problemlərinə də diqqətlə yanaşır”.

Q.İsmayılov bu yaxınlarda Tələbə Həmkarlar İttifaqı Komitəsinin hesabat-seçki yığıncağının keçirildiyini və komitənin 2017-2024-cü illərdəki fəaliyyətinə dair hesabatın təqdim olunduğunu yada saldı: “Çıxışımda son 7 il ərzində komitə tərəfindən görülən işlər haqqında ətraflı məlumat verdim. Həmin yığıncaqda ATU-nun rektoru, professor Gəray Gəraybəyli də çıxış edərək, komitənin nəzdində fəaliyyət göstərən ictimai təşkilatların uğurlarından, eyni zamanda tədris korpuslarında və yataqxanalarda nizam-intizamın gücləndirilməsi istiqamətində atılan addımlardan, eləcə də komitənin təşəbbüsü ilə təşkil olunan, tələbələrin vətənpərvərlik ruhunda tərbiyə edilməsində mühüm rol oynayan tədbirlərin əhəmiyyətindən danışdı. Həmçinin “Teatr klubu”nun peşəkar səviyyədə tamaşalar hazırladığını, bu tamaşaları tələbələrin, universitetin professor-müəllim heyətinin və şəxsən özünün maraqla izlədiyini deyən professor G.Gəraybəyli, ümumilikdə komitənin fəaliyyətini müsbət qiymətləndirdi. Elə həmin hesabat-seçki yığıncağında mən yenidən THİK-in sədri seçildim”.

Qurumun funksiyaları barədə məlumat verən komitə sədri bildirdi ki, THİK-in rəhbəri ATU Böyük Elmi Şurasının, onun nümayəndəsi isə Fakültə Elmi Şurasının tam hüquqlu üzvüdür. Universitetdə tələbələrlə bağlı qəbul olunan bütün qərarlarda bu qurumun rəyi nəzərə alınır: “Tələbələrin sosiallaşması və aktiv fəaliyyət göstərməsində THİK-in böyük xidmətləri var. Təşkilatın tərkibinə bütün fakültələr üzrə sədr və müavinlər başda olmaqla, onun nəzdində fəaliyyət göstərən 12 yaradıcılıq klubunun sədr və müavinləri, həmçinin aktiv büro üzvləri daxildir. “Nə? Harada? Nə zaman?” oyunu üzrə intellektual klub, teatr, kitab, şahmat, rəsm, yaradıcılıq klubları, “Vətəndaş cəmiyyəti-DEBAT” adlı ictimai, “Hilal” yardım, “Xarici tələbələrin səsi”, “Medical conversation” klubları, Media department, “Flaşmob” komandası THİK-in nəzdində fəaliyyət göstərirlər.



Bizim əsas iş istiqamətlərimiz I kurs tələbələrinin bu təşkilatda qeydiyyata götürülməsi, tələbələrin hüquqlarının qorunması, aktiv və istedadlı tələbələrin seçilməsi və onlarla iş aparılması, nizam-intizam qaydalarına nəzarət, tələbələri vətənpərvər ruhda maarifləndirmək, yaşayışlarının yaxşılaşdırılması, eləcə də aztəminatlılara (şəhid və qazi ailələrinin övladları) maddi yardım göstərilməsindən ibarətdir”.

THİK tələbələrin asudə vaxtlarının səmərəli təşkilinə çalışır, onların yataqxanalarda yerləşdirilməsi, narkomaniyaya və digər zərərli vərdişlərə qarşı tədbirlərin keçirilməsi, sağlamlıq və idman sahəsində dəstək, respublikada və xaricdə keçirilən müsabiqə, konfrans, müxtəlif yarışlar və festivallarda iştirakını təmin edir. Bundan başqa, tələbələr arasında mədəni-maarif işləri aparılır, poeziya və incəsənət xadimləri ilə görüşlər təşkil olunur, il ərzində dövlət tədbirləri və bayramlar keçirilir. Bütün bunlardan əlavə, THİK bir sıra maraqlı layihələrin də müəllifidir. Onlardan biri “5 günlük rezident ol” layihəsidir. Bu layihə çərçivəsində seçilmiş tələbələr 5 gün ərzində ATU-nun müxtəlif klinikalarında rezident kimi çalışırlar.

Q.İsmayılov rəhbəri olduğu təşkilatın son dövrlərdə həyata keçirdiyi işlərin bir neçəsini diqqətə çatdırdı: “Beynəlxalq Muğam Mərkəzində “İrəli” İctimai Birliyinin təşkil etdiyi “Qanım Bayrağımdadır” adlı ədəbi-bədii gecədə “Teatr” klubunun üzvləri təsirli səhnə təqdim etdilər. Tələbələrimiz “Avropa Bilik Yarışı”nın qalibi oldu. Belə ki, martın 2-də Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyi və Gənc Avropa Səfirlərinin birgə təşkilatçılığı ilə keçirilən Avropa bilik yarışmasında ATU-nun İntellektual oyunlar klubunun üzvlərindən ibarət “Sinaps” komandası birinci yeri qazandı. Bundan başqa, Yunus Əmrə İnstitutu ilə birgə yenidoğulmuşlarda qeyri-travmatik kəllədaxili qansızmalar mövzusunda seminar keçirmişik. THİK nümayəndələri “Təmiz Dünya” Qadınlara Yardım İctimai Birliyi nəzdində fəaliyyət göstərən Gender əsaslı Zorakılıq Qurbanları üçün Reabilitasiya və Reinteqrasiya Mərkəzini ziyarət ediblər. “Kitab” klubunun yeni başlatdığı Bakı turu layihəsinin ilk günü uğurla yekunlaşıb. “Debat” klubuna isə qeydiyyat başlayıb. İstedadlı tələbələrimiz auditoriya qarşısında çəkinmədən və səlis çıxış etmək, komanda ilə işləmək bacarıqları qazanmaq üçün qeydiyyatdan keçirlər”.

Bir sözlə, universitetimizdə tələbələrin asudə vaxtlarının səmərəli təşkili üçün münbit şərait yaradılıb. Tələbə Həmkarlar İttifaqı Komitəsi isə bu imkanlar daxilində çoxşaxəli fəaliyyətini uğurla davam etdirir.

**M.ƏLƏKBƏRLİ**

**Azərbaycan Tibb Universitetində Elmi departamentin Simpozium, konfrans və startap şöbəsi və Tələbə Elmi Cəmiyyətinin təşkilatçılığı ilə “Startapların təqdimatı. Startap konseptinə giriş” mövzusunda mühazirə oxunub.**

# Startap mövzusunda mühazirə oxunub



“INNOLAND” İnkubasiya və Akselerasiya mərkəzinin araşdırma və inkişaf üzrə mütəxəssisi Nilufər Seyidova tərəfindən təqdim olunan mühazirəni Stomatologiya fakültəsinin tələbələri və universitetimizin müəllimləri dinləyib. Tədbiri giriş sözü ilə açan Startap və konfrans şöbəsinin koordinatoru, Terapevtik stomatologiya kafedrasının dosenti Ayət Cəfərova qonaq haqda məlumat verib.

Sonra Terapevtik stomatologiya kafedrasının assistenti, t.u.f.d. Könül Qaragözovanın moderatorluğu ilə tədbir davam edib. Tələbələr arasında böyük maraq doğuran məruzə ətrafında geniş fikir mübadiləsi aparılıb.

# Stomatologiyada marketinq və startap mövzusunda təlim keçirilib

**Tələbə Elmi Cəmiyyəti tərəfindən “Stomatologiyada marketinq və startap anlayışı: nəzəriyyədən uğurlu başlanğıca gedən yol” təlimi keçirilib.**

Təlimdən öncə açılış nitqi ilə çıxış edən ATU-nun Elmi departamentinin müdiri, professor Eldar Qarayev bu mövzuda təlimin gənclər və tələbələr üçün əhəmiyyətindən söz açıb. Departamentin Startap və konfrans şöbəsinin müdiri, tibb elmləri doktoru Müşviq Həsənov startap layihələri, stomatologiyada belə layihələrin faydaları haqqında danışıb. Terapevtik stomatologiya kafedrasının dosenti E.Abbasova isə iştirakçılara təlimin strukturu və proqramı haqqında geniş məlumat verib.



Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimlərin Təkmilləşdirmə İnstitutunun Stomatologiya kafedrasının dosenti Rəşad Abışov stomatoloji marketinqin əsaslarına həsr olunmuş məruzə ilə çıxış edib.

Sonra məruzəçi tələbələrin suallarını cavablandırıb. Tələbələr tərəfindən böyük maraqla qarşılanan layihə davam etdiriləcək.

# Dünya tiroid gününə həsr olunmuş tədbir keçirilib



**Tədris Cərrahiyyə Klinikasında "Qalxanabənzər vəzin follikulyar düyünlərinin diaqnostika və müalicəsinə müasir yanaşma" adlı elmi-praktik seminar keçirilib.**

Klinikanın endokrinoloq-cərrahı, I Cərrahi xəstəliklər kafedrasının assistenti Azər Hümmətov çıxış edərək, həmişə Dünya Qalxanabənzər Vəzi Gününə həsr olunmuş tədbirlər keçirdiklərini qeyd edib: "Bu günkü tədbirimizdə sahəmiz üzrə son tədqiqatlar və nəticələr müzakirə ediləcək. Tədbirin keçirilməsində bizə dəstək olan universitetimizin rəhbərliyinə öz təşəkkürümüzü bildiririk. Onu da qeyd edim ki, I Cərrahi xəstəliklər kafedrasında 2015-ci ildən endokrin-cərrahi şöbə fəaliyyət göstərir, şöbə öz işləri ilə seçilir".

Adıçəkilən kafedranın müdiri, AMEA-nın müxbir üzvü, professor Nuru Bayramov çıxışında tibb elminin son illərdə sürətlə inkişaf etdiyini vurğulayıb: "Tibb sahəsindəki bu inkişaf yeni texnologiyalar, biomarkerlər, süni zəkanın sayəsində baş verir. Bu yeniliklərdən geri qalmamaq üçün innovasiyalara uyğunlaşmaq lazımdı. Bizim kafedramız bir neçə cərrahiyyə bölməsi üzrə ixtisaslaşır: endokrin, bariatrik, transplant və digər sahələr. Və bu sahələrin hər birində yeniliklərə imza atır".

Professor N.Bayramov qeyd edib ki, bu tədbir tiroid düyünləri ilə bağlı problemlərə və bu sahədə olan yeniliklərə həsr edilib.

Seminarda III Cərrahi xəstəliklər kafedrasının əməkdaşı, t.ü.f.d. cərrah-endokrinoloq Esmira Məmmədova "Tiroid follikulyar neoplaziyaları, diaqnostikası və müalicəsi", Şüa diaqnostikası və terapiyası kafedrasının əməkdaşı, t.ü.f.d. Lalə Ağabəyli "Tiroid follikulyar neoplaziyalarının ultrasəs elastoqrafik xüsusiyyətləri", Pataloji anatomiya kafedrasının dosenti Fikrət Əliyev "Qalxanabənzər vəzin düyünlü patologiyalarında morfoloji diaqnostikanın əhəmiyyəti" mövzularında çıxış ediblər.

# Əməkdaşlarımız Litva universitetində olublar

**Professor-müəllim heyəti və tələbələrimiz mütəmadi olaraq mobillik proqramlarında iştirak edirlər. Növbəti belə proqram Kaunas şəhərində yerləşən Litva Sağlamlıq Elmləri Universitetində baş tutub.**



İctimai sağlamlıq və səhiyyənin təşkili kafedrası və Normal fiziologiya kafedrasının müəllimləri Erasmus+ "Akademik Mübadilə Həftəsi - Tədris" proqramı çərçivəsində bu universitetdə məruzələrlə çıxış ediblər. Normal fiziologiya kafedrasının assistenti Aygün Cəfərova Litva universitetinin Fiziologiya kafedrasının tələbələrinə "Böyrəklərin homeostazda rolu" mövzusunda mühazirə söyləyib. İnteraktiv şəkildə baş tutan mühazirədə tələbələrə ifrazat sisteminin orqanizmin homeostazının qorunub saxlanmasındakı rolundan bəhs edilib. Tələbələrə qanın osmotik təzyiqi, su-duz balansı, arterial təzyiq və turşu-qələvi balansının böyrəklər tərəfindən tənzimlənməsi mexanizmləri izah edilib.

İctimai sağlamlıq və səhiyyənin təşkili kafedrasının baş müəllimi, İnnovasiya və keyfiyyətin idarə olunması şöbəsinin müdiri Aygün Babayeva isə İctimai səhiyyə fakültəsinin professor-müəllim heyəti qarşısında mühazirə ilə çıxış edib. A.Babayeva ekoloji dəyişikliklər, o cümlədən iqlim dəyişikliyinin insan sağlamlığına təsirindən danışıb. Bakıda keçiriləcək Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) haqqında məlumat verən şöbə müdiri bu mötəbər tədbirin ölkəmizin yaşıl iqtisadiyyata keçid strategiyasının tərkib hissəsi olduğunu vurğulayıb. A.Babayeva Azərbaycanda 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan olunduğunu xüsusi vurğulayıb.

A.Babayeva proqram çərçivəsində akademik fəaliyyətlə yanaşı, Litva universitetinin rəhbər şəxsləri ilə görüşlər də keçirib. Universitetin kansleri, professor Mindauqas Malakauskas, İctimai səhiyyə fakültəsinin dekanı, professor İda Liseckiene, Beynəlxalq Əlaqələr və Tədqiqat Mərkəzinin dekan müavini Alvidas Sarlauskas ilə görüşlərdə ictimai səhiyyə sahəsinə dair müxtəlif məsələlər, o cümlədən sosial sağlamlıq amilləri, mikrobioloji tədqiqatlar, ərzaq təhlükəsizliyi və digər mövzularla bağlı müzakirələr aparılıb. İki universitetin tətbiq etdiyi tədris proqramları, həmçinin tələbə və müəllimlərin akademik və tədqiqat mobilliyinə toxunulub. A.Babayeva Litva Sağlamlıq Elmləri Universitetinin infrastrukturu, tələbələrin təhsili üçün yaradılmış şərait, elmi-tədqiqat laboratoriyalarının fəaliyyəti ilə də tanış olub.

Proqramın sonunda əməkdaşlarımıza sertifikatlar təqdim olunub.

**Fövqəladə Hallar Nazirliyinin (FHN) Tibb Mərkəzində keçirilən seminarda Azərbaycan Tibb Universitetinin İctimai sağlamlıq və səhiyyənin təşkili kafedrasının professoru Musa Ələkbərov FHN-in Tibb Xidməti və Tibb Mərkəzinin əməkdaşları üçün "Stasionar yardımın planlaşdırılması və təşkili" mövzusunda mühazirə oxuyub.**

# ATU-nun professoru stasionar yardım mövzusunda fikirlərini bölüşüb



Professor toxunduğu mövzunun aktuallığına diqqəti çəkərək, seminarın keçirilməsi səbəbinin Tibb Xidməti rəhbərliyinin 30 aprel 2024-cü ildə ATU-nun rektoru, professor Gəray Gəraybəyliyə ünvanladığı müraciətlə əlaqədar olduğunu bildirib.

Natiq mühazirə zamanı səhiyyədə planlaşdırmanın əsas prinsipləri, planlaşdırmanın üsulları, təsnifatı və plan düzgün tərtib olunmadığı təqdirdə neqativ halların təzahürləri barədə iştirakçılara ətraflı məlumatlandırıb.

Mühazirə nazirlik əməkdaşları tərəfindən maraqla dinlənilib və sonda mövzu ətrafında disput keçirilib.

Onu da qeyd edək ki, yaxın günlərdə müvafiq qurumun nəzdində stasionar yardım göstərəcək tibb müəssisəsinin açılması planlaşdırılır.

# Əməkdaşımız Milli Müdafiə Universitetində mühazirə oxuyub

**Dövlət orqanlarında çalışan yüksək vəzifəli şəxslərə respublikanın təhlükəsizliyi və müdafiəsi ilə bağlı hərbi-siyasi, hərbi-strateji və hərbi-iqtisadi məsələlərin öyrədilməsi məqsədi ilə Milli Müdafiə Universitetinin Hərbi İdarəetmə İnstitutunda Azərbaycan Respublikası Prezidentinin 20 fevral 1999-cu il tarixli Fərmanı ilə yaradılmış Strateji araşdırmalar və dövlət müdafiəsi idarəetmə akademik kursu fəaliyyət göstərir.**



Akademik kursun tədris proqramına uyğun olaraq 29 may 2024-cü il tarixdə "Azərbaycanda səhiyyə və onun milli gücə təsiri" mövzusunda mühazirə dinlənilib. Həmin mühazirəni Azərbaycan Tibb Universitetinin İctimai sağlamlıq və səhiyyənin təşkili kafedrasının dosenti Fərəh Baxışlı oxuyub.

Üç hissədən ibarət mühazirə dolğun və informativ prezentasiyalarla təqdim olunub, interaktiv formada keçirilib və dinləyicilər tərəfindən böyük maraqla qarşılanıb.

# UFAZ-ın əməkdaşları Əczaçılıq fakültəsini ziyarət edib

**Strasburq Universitetinin professoru, Fransanın Milli Elmi Araşdırmalar mərkəzinin (CNRS) işçisi, eyni zamanda Azərbaycan-Fransız Universitetinin (UFAZ ) Elmi Araşdırma Departamentinin kimya üzrə direktoru, professor Christophe Serra və UFAZ-ın kimya üzrə elmi koordinatoru Maxime Florent ATU-nun Əczaçılıq fakültəsini ziyarət ediblər.**



Farmakoqnoziya kafedrasının baş müəllimi Xuraman Mustafayevanın təşkilatçılığı ilə baş tutan səfər çərçivəsində ATU-nun Elmi Departamentinin müdiri, professor Eldar Qarayev və Əczaçılıq fakültəsinin dekanı, dosent Fərəh Mədətlinin iştirakı ilə görüş keçirilib.

Həmçinin C.Serra və M.Florent Farmakoqnoziya kafedrasının müdiri, professor Cavanşir İsayev, Əczaçılıq kimyası kafedrasının müdiri, professor Tahir Süleymanov və digər əməkdaşlarla görüşüb, fakültənin laboratoriyaları ilə tanış olub, mümkün elmi əməkdaşlıqlar haqda müzakirələr aparıblar. Söhbət əsnasında polimerlərdən dərman daşıyıcıları, dərman bitkilərinin müasir analiz üsulları, bioloji fəal maddələrin spektroskopik analiz üsulları mövzularına toxunulub.

# Özbək professorlar Yoluxucu xəstəliklər kafedrasında olub

**Özbəkistanın Əbu Əli İbn-Sina adına Buxara Dövlət Tibb Universitetinin Epidemiologiya kafedrasının müdiri, tibb elmləri doktoru, professor Mehriniso Mirzoyeva və Yoluxucu xəstəliklər kafedrasının müdiri, tibb elmləri doktoru, professor Abdurașid Oblokulov ATU-nun Yoluxucu xəstəliklər kafedrasında olublar.**

Professor M.Mirzoyeva I Müalicə-profilaktika fakültəsinin tələbələri ilə görüşdə "Xüsusi təhlükəli infeksiyaların epidemiologiyası, klinikası və müalicə prinsipləri" mövzusunda çıxış edərək, bu sahədəki son məlumatları diqqətə çatdırıb. Onun çıxışı kafedra əməkdaşları və tələbələr tərəfindən maraqla dinlənilib.

Daha sonra Buxara universiteti ilə ATU arasında birgə elmi-tədqiqat işlərinin aparması, eləcə də elmi məqalələrin yazılması və tədris vəsaitlərinin hazırlanması istiqamətində fikir mübadiləsi aparılıb.



# Ortodontlarımız xarici həmkarları ilə öz təcrübələrini paylaşıb

**ATU-nun Ortodontiya kafedrasının əməkdaşları Bakıda keçirilən Azərbaycan Ortodontlarının 1-ci Beynəlxalq Konqresində iştirak ediblər. Azərbaycan Peşəkar Ortodontlar Cəmiyyəti və Azərbaycan Ortodontlar Dərnəyinin birgə təşkilatçılığı ilə baş tutan konqresdə dünyanın müxtəlif ölkələrindən gələn tanınmış professorların və yerli lektorların çıxışları dinlənilib.**



Ortodontiya kafedrasının müdiri, tibb elmləri doktoru, dosent Ramidə Şadlinskaya və tibb elmləri doktoru, dosent Zaur Novruzovun məruzələri də konqres iştirakçıları tərəfindən maraqla qarşılanıb.

Üç gün davam edən konqresdə müasir ortodontiyada müxtəlif multidisiplinar yanaşmalar, gicgah-çənə oynağı faktorunun vacibliyi, müvəqqəti dayaq cihazlarının tətbiqi, üz-kəllə anomaliyaları zamanı ortoqnatik cərrahiyyənin xüsusiyyətlərinə aid mövzular müzakirə olunub. Azərbaycan ortodontları xarici həmkarları ilə öz təcrübələrini paylaşıb və yeni müalicə üsulları haqqında fikir mübadiləsi aparıblar.

## Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə tədbirlər təşkil olunub



Səhiyyə Nazirliyinin təşəbbüsü ilə 1 İyun Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə Azərbaycan Tibb Universitetinin Tədris Terapevtik Klinikasında uşaqlar üçün pediatrik tibbi müayinələr təşkil olunub.

Belə ki, aztəminatlı, şəhid və qazi ailələrinin övladları, uşaq evlərində məskunlaşmış uşaqlar ödənişsiz müayinə aksiyasına cəlb edilib. Aksiya çərçivəsində 100-dən çox uşaq müxtəlif tibbi müayinələrdən keçib.

* * *



Nevrologiya kafedrasının əməkdaşları Uşaq Nevroloqları Assosiasiyası ilə birgə xeyriyyə aksiyası keçirib.

Tədris Terapevtik Klinikada baş tutan aksiya çərçivəsində aztəminatlı ailələrdən olan, eyni zamanda Mərdəkanda yerləşən 2 saylı uşaq evi və 7 saylı Uşaq Nevroloji Sanatoriyasından gəlmiş 50 uşaq müayinə olunub.

Kafedranın müdiri, professor Aytən Məmmədbəyli belə aksiyaların tez-tez keçirilməsinin tərəfdarı olduqlarını bildirib: "Bu tip aksiyalara universitet rəhbərliyimiz də, klinikamız da daim dəstəkdir. Qeyd edim ki, uşaqlar üçün növbəti aksiyanı, pediatr və psixiatrlarla birlikdə keçirməyi planlaşdırırıq".

* * *



I Uşaq xəstəlikləri kafedrasının dosenti Nigar Bayramova Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin 28-31 may tarixlərində təşkil etdiyi "Erkən uşaqlıq dövrünün inkişafı - koordinasiyalı fəaliyyət" mövzusunda təlimlərdə və konfransda iştirak edib.

Təlimin məqsədi erkən uşaqlıq dövründə fiziki, əqli və sosial inkişafda əhəmiyyətli rol oynayan mütəxəssislərin peşəkarlığının artırılması olub.

Türkiyədən dəvət olunmuş ekspertlər tərəfindən 3 gün ərzində aktual mövzularda təlimlər keçirilib. Pediatr, müəllim, tərbiyəçi, sosial işçi, psixoloq, psixiatr və digər uşaq mütəxəssislərinin iştirak etdiyi təlimlərə "Erkən uşaqlıq dövrünün inkişafı – koordinasiyalı fəaliyyət" adlı konfransla yekun vurulub.

## Anadolu Universitetində elmi tədqiqat aparılıb



Farmakoqnoziya kafedrasının baş müəllimi, əczaçılıq üzrə fəlsəfə doktoru Aytən Şükürova Türkiyənin Anadolu Universitetində altı ay ərzində elmi tədqiqat aparıb.

Türkiyə Cümhuriyyətinin təqaüd proqramı çərçivəsində həyata keçirilən layihə çərçivəsində Azərbaycanda yetişən və "dəligöz tikanı" kimi tanınan bitkinin fitokimyası, müalicəvi xüsusiyyətləri və bioloji aktivliyi araşdırılıb.

A.Şükürovanın sözlərinə görə, elmi fəaliyyət Eskişehirdə yerləşən universitetin Farmakoqnoziya kafedrasında professor Nilgün Öztürkün rəhbərliyi ilə baş tutub. "Phytochemical and Bioactivity Studies on Centaurea iberica Trev. ex Sprengel growing in Azerbaijan" mövzusundakı elmi-tədqiqat işi çərçivəsində əməkdaşımız müasir tədqiqat üsulları və yeni cihazlarla işləməyi öyrənib.

A.Şükürova, həmçinin Ankara şəhərində Türk Əczaçıları Birliyinin təşkil etdiyi təlimdə iştirak edərək sertifikata layiq görülüb.

**ATU-nun Uşaq və yeniyetmələrin sağlamlığı və əmək sağlamlığı kafedrası və Rezidentura və magistratura şöbəsinin birgə təşkilatçılığı ilə "Yaşıl dünya naminə həmrəylik ili", eyni zamanda Uşaqların Beynəlxalq Müdafiəsi Gününə həsr olunmuş "Ekologiya və uşaqlar" mövzusunda seminar keçirilib.**

# Rezidentlər ekologiyanın uşaq sağlamlığına təsirindən danışıblar



Seminarın moderatoru, Rezidentura və magistratura şöbəsinin müdir müavini, assistent Namiq Xəlilov belə tədbirlərin əhəmiyyətindən danışaraq universitetin rektoru, professor Gəray Gəraybəylinin rezidentlərə daim xüsusi diqqət ayırdığını, onların elmi fəaliyyətini dəstəklədiyini, bu istiqamətdə mühüm işlər həyata keçirildiyini vurğulayıb.

Uşaq-yeniyetmələrin sağlamlığı və əmək sağlamlığı kafedrasının müdiri, dosent Şəhla Balayeva çıxışında müasir dünyada ekoloji problemlərin aktuallığından, ətraf mühitə antropogen təsirlərin artan miqyasından söhbət açaraq, bəşəriyyət qarşısında duran bir sıra ciddi problemlərin həllinin qaçılmaz təmin edilməsində ekoloji yanaşmanın vacibliyini diqqətə çatdırıb. Qeyd edib ki, Prezident İlham Əliyevin 2024-cü ili "Yaşıl dünya naminə həmrəylik ili" elan etməsi məhz dünyadakı ekoloji problemlərin həllinə Azərbaycanın töhfəsi hesab edilə bilər.

Epidemiologiya və biostatistika kafedrasının müdiri, ə.e.x., professor İbadulla Ağayev, Qidalanma və tibbi ekologiya kafedrasının müdiri, dosent Fəridə Əli, İctimai sağlamlıq və səhiyyənin təşkili kafedrasının müdiri, dosent Yaqut Hacıyeva rezidentlərin aktual mövzularda elmi tezislərini müsbət qiymətləndiriblər və öz tövsiyələrini veriblər.

Bundan sonra gigiyena ixtisası üzrə rezident Fidan Əhmədli "Ekologiya və uşaqlar" adlı təqdimatla çıxış edərək, uşaqların sağlamlığına təsir edən ekoloji problemlər, uşaqların xəstələnməsi və ölümündə ətraf mühit amillərinin təsir səviyyəsi, uşaqların ekoloji problemlərə qarşı böyüklərdən fərqliliyi və unikallığı haqqında məlumat verib. Həmçinin uşaq sağlamlığının qorunmasında səhiyyə və digər dövlət qurumlarının birgə əməkdaşlığının xüsusi önəm daşıdığını söyləyib. Rezident Ülviyyə Əhmədova isə eyni ixtisas üzrə "Ekologiya və uşaqlarda miopiya" mövzusunda çıxış edib. O, uşaqlarda miopiyanın inkişafında ekologiyanın rolu, uşaqlar arasında miopiyanın yayılma səviyyəsi və profilaktikası barədə fikirlərini bölüşüb.

Təqdim edilən məruzələr maraqla dinlənilib və çıxışlar ətrafında geniş müzakirələr aparılıb.

## Körpələr arasında ölümün azaldılması yolları müzakirə edilib

**1 İyun Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə yenidoğulmuşlarda ölüm və ağırlaşmaların azaldılması yollarına həsr edilmiş "Bəslənmənin problemləri" mövzusunda seminar keçirilib.**



Həkim, rezident və tibb bacılarının iştirak etdiyi seminarda sağlam, xəstə və yarımçıq doğulmuşların bəslənməsinin müxtəlif aspektləri dəyərləndirilib, mövzu ilə əlaqədar ətraflı müzakirələr aparılıb. Seminarda ana südünün əhəmiyyətinə dair məlumat verilərək, bu cür bəslənmənin 0-6 aylıq uşaqlar üçün "qızıl standart" hesab olunduğu vurğulanıb. Qeyd olunub ki, bu qida ilk 6 ayda körpə orqanizminin ehtiyac duyduğu enerji və qida maddələrinin hamısını, 6-12 ayda yarısını, 13-24 ayda isə üçdə birini qarşılayır.

Seminarda çıxış edənlər bildiriblər ki, vaxtından əvvəl doğulan uşaqlarda ana südü demək olar ki, həyatın mühafizəsini təmin edir. Digər tərəfdən, keyfiyyətinə və balanslaşdırılmış komponentlərinin tərkibinə görə ana südündə olan bioloji aktiv birləşmələri əvəz etmək mümkün deyil. Ana südü ilə qidalanma immun sistemini aktivləşdirir, allergik reaksiyaların, ani uşaq ölümü sindromunun, xroniki xəstəliklərin, eləcə də diabet və piylənmənin əmələ gəlmə riskini azaldır. Ana ilə körpə arasında erkən dövrlərdə tam emosional bağlılıq yaradır.

## Revmatoid artrit əlilliyə səbəb ola bilər



III Daxili xəstəliklər kafedrası Rezidentura və Magistratura şöbəsi ilə birgə Tədris Terapevtik Klinikada rezidentlər, tələbələr və gənc həkimlər üçün növbəti seminar keçirib.

Şöbə müdirinin müavini, assistent Namiq Xəlilov giriş nitqində vurğulayıb ki, revmatoid artrit (RA) ən çox rast gəlinən sistem autoimmun xəstəlik olub və oynaqlarda simmetrik artrit yaradan xroniki iltihabi xəstəlikdir.

Sonra Revmatologiya ixtisası üzrə II kurs həkim-rezident Ədhəm Ağamaliyev "Revmatoid artritə bənzər halların differensial diaqnostikası" mövzusunda çıxış edib. O bildirib ki, xəstəliyin erkən mərhələlərində bəzi klinik hallar istisna olunmalıdır. Onların arasında virus mənşəli artrit differensial diaqnostikada mühüm rol oynayır: "Etioloji faktoru nəzərə alsaq, virus artritlərin ən sıx səbəbi Parvovirus B19-dur. Virus artritin klinikasında RA bənzərlik çox olsa da, bəzi təzahürlər və anamnestik faktlar onları bir-birindən ayırmağa kömək edə bilər.

Müşahidə etdiyimiz 57 yaşlı ibtidai sinif müəlliməsi bizə əlinin xırda simmetrik oynaqlarında ağrı və şişkinlik ilə müraciət etmişdi. Anamnezindən məlum oldu ki, o özünü 5 gündür xəstə hesab edir və ilk simptomlar yüksək hərarət və bədənində səpkidir. Fiziki müayinədə metakarpofalangeal, proksimal interfalangeal və hər iki mil-bilək oynaqlarının ağrılı və şişkin olması müəyyən edildi. Temperatur norma daxilində idi və bədənində səpki izlənilmirdi. İlk baxışda klinika RA xatırlatsa da (simmetrik poliartrit), pasiyentin yaşı, peşəsi, xəstəliyin müddəti diaqnozu şübhə altına qoyur. Pasiyentdə 2 həftəlik QSİƏP (Qeyri-steroid iltihab əleyhinə preparat) müalicə fonunda müsbət effekt alındı. Klinik durumu yaxşılaşdı (oynaqlarda ağrı və şişkinlik qeyd olunmadı) və iltihabın kəskin faza göstəriciləri normallaşdı".

Məruzə ətrafında fikir bildirən III Daxili xəstəliklər kafedrasının professoru Fərhad Talıbov bildirib ki, simmetrik poliartritdə RA üçün kifayət qədər bal toplanmasına baxmayaraq, başqa xəstəliklərlə differensial diaqnostika aparılmalıdır. Bununla da revmatoid artritə hiperdiaqnostika və əsassız təməl dərmanların verilməsinin qarşısı alınacaq.

Seminarda klinikanın direktor müavini Fəridə Hacıyeva, həmçinin adıçəkilən kafedranın əməkdaşları, rezidentlər və tələbələr iştirak ediblər.

## Əməkdaşımız Cenevrədə tədbirdə iştirak edib



Tədris Cərrahiyyə Klinikasının Neyrocərrahiyyə şöbəsinin əməkdaşı Leyli Rzayeva İsveçrənin Cenevrə şəhərində keçirilən "The First Global Partners Meeting on Nursing and Midwifery" tədbirində iştirak edib.

Azərbaycandan beynəlxalq tədbirdə tək nümayəndə olan əməkdaşımız öz çıxışında AR Səhiyyə Nazirliyinin səhiyyə sahəsində həyata keçirdiyi yeniliklərdən bəhs edib. O, Tibb bacılığı ixtisasının Azərbaycanda artıq tək kollecldə deyil, ATU-da ali səviyyədə tədris olunduğunu bildirib, bu sahəyə olan maraqdan, bu ixtisasın praktik önəmindən danışıb.

# Parkinson xəstəliyi və onun reabilitasiyası

## Erkən reabilitasiya prosesi xəstəni uzunmüddətli əlillikdən azad edir



Rəna SƏMƏDOVA,
*Fizioterapiya və tibbi reabilitasiya kafedrasının assistenti*

**Parkinson - yaşlı insanlarda ən çox rast gəlinən xroniki, getdikcə proqressivləşən neyrodegenerativ xəstəliklərdən biridir. Ədəbiyyata nəzər saldıqda məlum olur ki, bu xəstəliyin əlamətləri hələ eramızdan əvvəl qədim Misirdə qeydə alınıb. Amma 1817-ci ildə ingilis həkimi Ceyms Parkinson bu xəstəliyin əlamətlərini Londonun sakinləri üzərində öyrənərək ilk dəfə təsvir edib və onu "əsmə iflici" adlandırıb. Bu səbəbdən də sonrakı dövrdə xəstəlik alimin adı ilə tanınıb.**

Parkinson xəstəliyi (PX) zamanı qabıqaltı strukturların, xüsusən də qara maddənin neyronlarının zədələnməsi və ölümü baş verir. Qeyd etmək lazımdır ki, bu xəstəliyə əsasən yaşlı insanlar (65 yaşdan yuxarı) və daha çox kişilər düçar olur. Buna baxmayaraq, nadir hallarda xəstəlik cavan insanlarda da yarana bilər (Yuvenil parkinsonizm). Parkinsonizm sindromunun əsas təzahürlərinə hərəkətin ləngiməsi, əzələ tonusunun artması, sakit vəziyyətdə yaranan baş və ətrafların əsməsi, bükücü vəziyyət, yerişin pozulması (xırda addımlarla), dayanıqsızlıq, tez-tez baş verən yıxılmalar, "donmuş vəziyyət" və s. simptomları aid etmək olar. Əslində parkinsonizm sindromunun əsasında birincili (Parkinson xəstəliyi və yuvenil parkinsonizm) və ikincili (müxtəlif serebrovaskulyar xəstəliklər, ensefalit, travma, zəhərlənmə, bəzi dərmanların qəbulu və s.) səbəblər dayana bilər. Həmçinin bir sıra neyrodegenerativ xəstəliklərdə də parkinsonizm sindromuna rast gəlmək olar (Parkinsonizm plyus).

PX əsasən ləng gedişata malik olsa da, getdikcə proqressivləşəndir. İlk olaraq birtərəfli başlayıb, mərhələdən-mərhələyə inkişaf edərək xəstələrin gündəlik həyatlarına mühüm dərəcədə təsir edir. Belə ki, bu xəstələrdə özünə qulluq, ayağa qalxmaq, dayanıqlı vəziyyətdə müvazinəti qorumaq, yerimək, qida qəbulu, əqli fəaliyyət və s. proseslərin müstəqil icrası getdikcə çətinləşir və bu onları tədricən kənar şəxslərdən asılı edir. Bu səbəbdən xəstəlik multidissiplinar yanaşma tələb edir – nevroloqla yanaşı, xəstəliyə erkən dövrdən həkim-reabilitoloqun, fizioterapevtin müdaxiləsi və kompleks reabilitasiya proqramının hazırlanması olduqca vacibdir. Fizioterapiya və tibbi reabilitasiyanın məqsədi qan dövranını yaxşılaşdırmaq, baş beyində metabolik proseslərin səviyyəsini qaldırmaq, əzələ tonusunu, ümumi "donuq" vəziyyəti və əsməni azaltmaq, xəstəliyin inkişaf prosesini ləngitmək, xəstələrin fiziki və emosional aktivliyini yüksəltməkdən ibarətdir.



Parkinson xəstəliyinin proqressivləşən gedişata malik olduğunu nəzərə alaraq, reabilitasiyanın əsas vəzifəsi xəstəliyin inkişafını ləngitmək və xəstənin həyat keyfiyyətini mümkün dərəcədə artırmaqdır. Reabilitasiya hər zaman nevroloq tərəfindən düzgün tənzimlənmiş medikamentoz müalicə ilə bərabər aparılmalıdır. Bəzi hallarda konservativ müalicə effektsiz olduqda, cərrahi müdaxilə tələb oluna bilər (palidotomiya, talamotomiya, dərin beyin stimulyasiyası). Antiparkinsonik preparatlar xəstəliyin əsas simptomlarının təzahürünü azaltsa da, xəstəliyin inkişaf etməsi getdikcə dozaların artırılmasını tələb edir və xəstələrdə bir çox fəsadlar yaratmış olur. Burada erkən başlanan fiziki reabilitasiyanın rolu danılmazdır. Bu xəstələrin kompleks terapiyasında kinezioterapiya, aerob məşqlər, tredmil, Skandinaviya yerişi, müvazinət və yeriş məşqləri, hidroterapiya, müalicəvi masaj, fizioterapiya, statokinezoqramma ilə bioidarə etmə, loqoped ilə məşqlər, VR-oyunlar, rəqslər və s. geniş istifadə olunur.

Xəstəliyin əsas təzahürlərindən biri odur ki, postural pozulmalar (vəziyyətin və duruşun pozulması) tədricən xəstələrdə bükücü vəziyyətin ("maneken" vəziyyəti) alınmasına gətirib çıxarır. Burada əsas problem xəstələrin iradi hərəkətlərin proqramlaşdırılması və ardıcıllığında çətinlik çəkmələridir. Belə hallarda müalicəvi-gimnastika kompleksi dayanıqlığın, gücün, dözümlülüyün inkişafına, dönmə, qalxma, yerimə manevrlərinin öyrənilməsinə və tremorun idarə olunmasına yönəldilir. Eyni zamanda, emosional sahədə pozulmalar neyropsixoloqlar tərəfindən tənzimlənməlidir.

Beləliklə, Parkinson xəstəliyi bütün dünyada olduqca aktual tibbi və sosial problem olaraq qalır. Düzgün seçilmiş medikamentoz müalicə və erkən başlanan reabilitasiya prosesi xəstəni uzunmüddətli əlillikdən azad edir və həyat keyfiyyətini yüksəldir.

**Müasir dövrdə texnologiyaların inkişafı müsbət nəticələri ilə yanaşı, zərərli xüsusiyyətləri ilə də diqqətimizi cəlb edir. Son illər qulaqcıqlardan istifadə edənlərin sayı getdikcə artmaqda davam edir. Bunu nəzərə alaraq, qulaqcıqlar haqqında qısaca ümumiləşdirilmiş məlumat vermək istərdim.**

# Qulaqcıqdan çox istifadə tərki-dünyalığa və karlığa aparır



Şirazi İBRAHİMOV,
*Qulaq, burun, boğaz xəstəlikləri kafedrasının assistenti*

İlk baxışda qulaqcıqların ictimai məkanlarda, nəqliyyat vasitələrində, yolda və s. yerlərdə istifadəsi müsbət amil kimi dəyərləndirilə bilər. Çünki hər kəs asayişi nəzərə alaraq musiqi və ya digər səsləri heç kimi narahat etmədən özü dinləyir. Amma bu texniki vasitədən həddindən artıq istifadə edənlər yavaş-yavaş tərki-dünya olur, sosial mühitdən, ətraf aləmdən uzaqlaşırlar. Nəticədə onların əsəb-sinir sistemində, psixikasında mənfi dəyişiklik, insanlarla ünsiyyət qurmalarında problemlər yaranır. Yanlarında baş verən hadisələrdən xəbərsiz olur, öz aləmlərində yaşayır, bir müddətdən sonra reallıqdan uşaqlaşmağa başlayırlar.

Eyni zamanda, yüksək səslə musiqi dinləmək daxili qulaqda eşitmə siniri hüceyrələrinə mənfi təsir edir, belə hal uzun müddət davam edərsə, qulaqlarda küy, eşitmə zəifliyi, hətta karlıq yarana bilər. Qulağında xəstəliyi və eşitmə zəifliyi olanların qulaqcıqdan istifadə etməsi məsləhət görülmür. Sağlam insanların isə qulaqcıqlardan gün ərzində aşağı səslə, maksimum 2 saat istifadə etməsi məqsədəuyğundur. Hər bir insanın xarici qulaq keçəcəyinin öz xarakterik ölçüsü var. Ona görə də qulaqcıqlar ölçülərə uyğun seçilməlidir ki, istifadəçilər sonradan əlavə problemlərlə üzləşməsinlər.

Qulaqxarici qulaqcıqlardan fərqli olaraq, qulaqiçi qulaqcıqlardan istifadə etdikdə, təbil pərdəsinə daha yaxın yerləşdiyi üçün yüksək səslə dinləmələr eşitmə üzvlərinə daha çox zədələyici təsir göstərir. Qulaqcıqlardan mütəmadi olaraq istifadə etmək tədricən asılılıq yaratmaqla yanaşı, həm də bir müddət keçdikdən sonra həmin səs qulağa kifayət etmədiyi üçün tədricən səsi artırmaq ehtiyacı yaranır.

Xəstəliklərin statistikası göstərir ki, qulaqcıqlardan nizamsız istifadə nəticəsində zəifeşitmə və karlıq getdikcə cavanlaşmaqdadır.

Normada insanlar 16 Hers ilə 20.000 Hers tezliyi aralığında olan səsləri eşidirlər. Səsin gücü isə desibellə ölçülür. 110-130 desibeldən yuxarı səslər insanlara çox pis təsir göstərir. 500-4000 Hers tezliyində və 25-30 desibel gücündə olan səslər insanlar üçün ən optimal səslər hesab olunur. Səsin gücünü artırmaq, yəni 60 və daha çox desibel səslə uzun zaman musiqi dinləmək sensonevral ağıreşitmələrə səbəb ola bilər.

Bütün bunlarla yanaşı, qulaqcıqlar keyfiyyətli olmaqla bərabər, eyni adam tərəfindən istifadə olunmalı, istifadədən əvvəl nəm salfetlə silinməli, hər yarım saatdan bir 5-10 dəqiqə müddətinə qulaqdan çıxarılmalı və 30 desibelə qədər səslə dinlənilməlidir.

# "Nuriyyənin mələkləri"

## Onlar universitetimizin göz oxşamasına cavabdehdirlər

**"Təbib" qəzeti universitetimizin müəllim-professor heyəti, istedadlı tələbələrimizin nailiyyətləri, müxtəlif tədbirlər, klinikalarımızın fəaliyyəti barədə mütəmadi olaraq xəbər və müsahibələr, reportajlar təqdim edir. Amma sanki unutduğumuz, halbuki universitetimizin hər yerində hər gün rastlaşdığımız əməkdaşlarımız da var. Bu dəfə onlardan - səliqə-sahmana, təmizliyə cavabdeh olanlardan yazdıq.**



Bu məqsədlə İdman Kompleksində olduq. Direktor Nuriyyə Sebeşova 2004-cü ildən kompleksə rəhbərlik edir. Burada xadimələr, paltarasanlar və texniki işçilər daxil olmaqla 20 işçi çalışır.

Nuriyyə xanım işçilərindən çox razıdır. Bildirir ki, məhz onların çalışqanlığı sayəsində İdman Kompleksi və həyətdə səliqə-sahman göz oxşayır: "Doğrudur, bina çoxdan inşa edilib. Təmirə ehtiyacı var. Belə bir şəraitdə işləmək xadimələrimizin işinə maneçilik törətsə də, onlar öz işlərinin öhdəsindən layiqincə gəlirlər. Elə işçilərimiz var ki, 30-35 ildir bizdə çalışırlar. Buranı özlərinə artıq ikinci ev hesab edirlər. Kompleksin divarları belə onlara doğmalaşıb. Sadəcə tapşırıq vermək kifayət edir ki, onlar öz işlərini icra etsinlər. Bu səbəbdən işçilərimin hamısından çox razıyam. Onların hamısı mənim üçün doğma və əzizdir. Amma fəal işçi kimi Elsanə Əhmədova və Tahirə Şahverdiyevanın adlarını çəkə bilərəm. Elə bilirəm ki, onlardan biri sağ, o biri isə sol qanadlarımdır".

Söhbət etdiyimiz E.Əhmədova işlədiyi kollektivdə hər kəsin öz işini yaxşı bildiyini qeyd edir: "Çalışıram ki, mənə aid olan işi səliqəli şəkildə yekunlaşdırım. Nuriyyə xanımın işimə baxıb üzü gülüncə, mən də sevinir, fərəhlənirəm. Biz bəzən universitetin korpuslarında aparılan təmirdən sonra oranın təmizlik işlərini də görürük. Müdirimizdən çox razıyıq, çalışırıq ki, o da öz növbəsində bizdən və işimizdən razı qalsın. Bu isə universitet rəhbərliyinin fəaliyyətimizdən razı qalması deməkdir".

T.Şahverdiyeva da iş yoldaşının fikirlərini təsdiqləyir. Əlavə edir ki, işlərini rahat görmələri üçün lazımi əşyalarla təmin olunublar: "Rəhbərlikdən də çox razıyıq. Vaxtaşırı İnzibati-təsərrüfat işləri üzrə prorektor Tağı Əhmədov, Təsərrüfat və təchizat şöbəsinin müdiri Elçin Əlizadə kollektivimizə baş çəkir. Ehtiyacımız olan alətlər və əşyalarla təmin edirlər. Biz də öz növbəmizdə çalışırıq ki, gördüyümüz işdən gül ətri gəlsin".



Xadimə Nazik İsmayılovanı həmişə İdman Kompleksinin həyətində, iş başında görmək olar. Həyətin təmizlik işlərinə cavabdeh olduğu üçün çalışır ki, ərazini küləyin gətirdiyi tullantılardan, ağac yarpaqlarından, otlardan təmiz saxlasın.

Leyli Alıyeva, Mərziyyə Bəşirova da vəzifəsinin öhdəsindən layiqincə gələn işçilərdir. Verilən tapşırıqları yerinə yetirmək onlar üçün elə də çətin deyil. Bununla yanaşı, kompleks təmir edilərsə, işlərinin rahatlaşacağını, nəticənin isə daha gözəl olacağını deyirlər.

Paltarasan Simnarə Mahmudova kompleksdə tez-tez idman yarışları keçirildiyini və məşqlər aparıldığını bildirir: "Bəzən məşqlər axşam saat 8-9-dək çəkir. Biz paltarasanlar onların paltarları və şəxsi əşyalarının qorunmasına cavabdehik. Çalışırıq ki, yarışlarda iştirak edənlər və məşqə gələnlər bizdən narazı qalmasın".

Zərövşə Orucova, Cəmilə Nuriyeva, Mərziyyə Vəliyeva... İdman kompleksinə məşq etmək və ya yarışlara qatılmaq üçün gələnlərə bu adlar yaxşı tanışdır. Onlar xoş rəftar və işgüzarlıqları ilə hamının hörmətini qazanıblar. Bu səbəbdən "Nuriyyənin mələkləri"ndən hər kəs razıdır. Gördüyümüz səliqə-sahman, xoş münasibətdən məmnun olan bizim kimi...

**Qabil ABDULLAYEV**

# “Çinar” və “Şəfa” ansambllarının üzvləri «Təbib» düşərgəsində istirahət edib

**Həmkarlar İttifaqı Komitəsi (HİK) universitetimizin mədəni həyatında aktiv iştirak edir və tədbirlərin keçirilməsinə böyük dəstək göstərir. HİK-in nəzdində fəaliyyət göstərən və tələbələrimizdən ibarət olan “Çinar” rəqs və “Şəfa” xalq çalğı alətləri ansambları ATU-da keçirilən tədbirləri öz peşəkar çıxışları ilə bəzəyir və bayram ab-havası yaradırlar.**



Xəbər verdiyimiz kimi, bu günlərdə Həmkarlar İttifaqı Komitəsinin təşkilatçılığı ilə Azərbaycan-Türkiyə qardaşlığına həsr olunmuş “Bu ellərin soyu birdir, kökü bir” adlı təntənəli ədəbi-bədii gecə keçirilib. Tədbirdə universitet rəhbərliyi, professor-müəllim heyəti, tələbələr, tanınmış ictimai xadimlər, o cümlədən Türkiyənin Azərbaycandakı səfiri Cahid Bağçı xanımı ilə birgə iştirak edib. Bu dəfə də “Çinar” rəqs və “Şəfa” xalq çalğı alətləri ansambllarının çıxışları gecəyə xüsusi rəng qatıb.

Qeyd edək ki, dosent Cahangir Qasımovun sədri olduğu HİK, eləcə də Elçin Əlizadənin rəhbərlik etdiyi Təsərrüfat və təchizat şöbəsi ATU-nun əməkdaşları və tələbələrinin mədəni istirahəti məqsədilə hər il yaz-yay aylarında universitetimizin “Təbib” istirahət düşərgəsinə səfərlər təşkil edir. Bu günlərdə adıçəkilən ansamblların üzvləri “Təbib”-də ən yüksək səviyyədə istirahət ediblər.

Xatırladaq ki, hər il olduğu kimi, bu il də “Təbib” istirahət düşərgəsində abadlıq və yenidənqurma işləri aparılır. Çoxlu sayda ağaclar və güllər əkilib, yeni koteclər tikilərək istirahət zonası genişləndirilir.

# “İctimai sağlamlıq” adlı jurnal işıq üzü görüb



**“Müstəqilliyimizi əldə etdikdən sonra ölkəmizdə ictimai sağlamlıq problemlərinə ciddi diqqət ayrılıb. Müasir dövrdə ictimai sağlamlıq dünyada ən prioritet məsələlərdən biridi”. Bu fikri yeni işıq üzü görmüş “İctimai sağlamlıq” (“Public Health”) jurnalının baş redaktoru, t.e.d., İctimai sağlamlıq və səhiyyənin təşkili kafedrasının professoru Rafiq Çobanov səsləndirib.**

O hər zaman bu sahəyə aid xüsusi jurnalın nəşrinə çalışdıqları, bu istiqamətdə böyük işlər görüldüyünü deyib: “Jurnalın ilk buraxılışı artıq işıq üzü görüb və nəşrdə Azərbaycan, rus və ingilis dillərində məqalələr yer alıb. Məqalələrin müəllifləri azərbaycanlı mütəxəssislərlə yanaşı, həm də Türkiyə, Qazaxıstan, Özbəkistan, Rusiya, Moldova kimi ölkələrin tanınmış ekspertləridir. Jurnalın hazırlanmasında əsas məqsədimiz ölkədə və regionda ictimai sağlamlığın inkişafına töhfə verməkdir. Jurnal gerontologiyanı, həmçinin bir çox başqa sahələri əhatə edir. Hər bir məqalə qiymətli informasiya mənbəyidir. Bu jurnal bütün tibb sahəsində çalışanlar üçün faydalı olacaq. Jurnalda ATU-nun magistratura pilləsini bitirən məzunların dissertasiya işləri də yer alacaq”.

İctimai sağlamlıq və səhiyyənin təşkili kafedrasının müdiri, jurnalın baş redaktor müavini t.ü.f.d., dosent Yaqut Hacıyeva bildirib ki, ölkəmizin səhiyyə sektoru üçün belə bir jurnal böyük əhəmiyyət daşıyır və universitetimizin “Yaşıl dünya naminə həmrəylik ili” çərçivəsində aparılan islahatlara bir töhfəsidir. Onun sözlərinə görə, jurnalda dərc edilməsi üçün Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutu, Elmi-Tədqiqat Mərkəzi, Elmi-Tədqiqat Mamalıq və Ginekologiya İnstitutu, Akademik M.A.Topçubaşov adına Elmi Cərrahiyyə Mərkəzi, Liv Bona Dea Xəstəxanası, Quba Rayon Mərkəzi Xəstəxanası və ATU-nun müxtəlif kafedralarından məqalələr göndərilib.

# Profilaktik təbabət sahəsində yeni dərsliklər

Qısa müddət ərzində ATU-nun Qidalanma və tibbi ekologiya kafedrasında məsləhətçi professor M.A. Kazımovun ümumi redaktorluğu ilə iki dərslik - "Gigiyenik diaqnostika" (prof. Kazımov M.A., t.ü.f.d., assistent Kazımova V.M.) və "Ətraf mühitin toksikologiyası" (prof. Kazımov M.A., dos. Səmədov Ş.X., t.ü.f.d., assistent Kazımova V.M.) hazırlanıb və “Təbib” nəşriyyatında nəfis tərtibatda işıq üzü görüb.

“Gigiyenik diaqnostika” kursu yeni fənn olmaqla yanaşı, fundamental gigiyenanın əsas müddəaları üzərində formalaşıb. Gigiyenik diaqnostika fənninin vəzifəsi insanların sağlamlıq vəziyyəti və onu təhdid edən ətraf mühitin külli miqdarda risk amilləri arasındakı səbəb-nəticə əlaqələrini müəyyənləşdirməkdən ibarətdir. Dərslikdə bu fənnin həm nəzəri, həm də təcrübi aspektləri tədris proqramına uyğun olaraq aydın və lakonik şəkildə şərh edilib.

“Ətraf mühitin toksikologiyası” dərsliyi isə Nazirlər Kabinetinin qərarı ilə təsdiq olunmuş, dövlət təhsil standartlarına uyğun olaraq Elm və Təhsil Nazirliyinin əmrilə ATU-da “Tibbi profilaktika” ixtisası üzrə təhsil alan tələbələrin tədris fənlərinə daxil edilmiş “Ətraf mühitin toksikologiyası” fənninin proqramı əsasında hazırlanıb. Dərslikdə ətraf mühit obyektlərinin kimyəvi çirklənmələri, onların mənbələri, əhali sağlamlığına təsiri, toksikodinamikası, orqanizmdə metabolizm xüsusiyyətləri, toksikometriya elementlərinin təyini, ksenobiotiklərin müxtəlif ətraf mühit obyektlərində normalaşdırılmasının xüsusiyyətləri və əhali sağlamlığına təsirinin profilaktikası məsələlərinə dair nəzəri və təcrübi material məntiqi ardıcıllıqla öz əksini tapıb.




**Amerika Kardioloqlar Cəmiyyətinin fəxri üzvü, tibbi biokimyaçı və fizioloq, tibb elmləri doktoru, professor Səbzəli Cavadov dünyasını dəyişib.**

# ABŞ-da yaşayan azərbaycanlı professor vəfat edib

Səbzəli Əbil oğlu Cavadov 1960-cı il mayın 20-də Xaçmaz rayonunda ziyalı ailəsində anadan olub. O, 1977-ci ildə Bakı şəhəri Kimya-biologiya təmayüllü respublika liseyini bitirib. 1977-1983-cü illərdə Piroqov adına 2-ci Moskva Tibb İnstitutunun (indiki Piroqov adına Rusiya Milli Tədqiqat Tibb Universiteti) Tibbi-biologiya fakültəsində biokimya ixtisası üzrə təhsil alıb. 1983-1986-cı illərdə SSRİ Tibb Elmləri Akademiyası Ümumittifaq Kardiologiya Elmi Mərkəzinin Eksperimental Kardiologiya İnstitutunda aspirant olub. 1985-ci ildə mərkəzin aspirantları və gənc alimləri arasında keçirilən elmi müsabiqənin qalibi kimi fəxri fərmanla təltif edilən S.Cavadov 1986-cı ildə tibb elmləri namizədi alimlik dərəcəsi aldıqdan sonra Azərbaycana qayıdaraq Elmi-Tədqiqat Kardiologiya İnstitutunda işə başlayıb. 1992-ci ildə Rusiya Kardiologiya Elmi-İstehsalat Kompleksi (indiki Rusiya Milli Tibbi Elmi-Tədqiqat Kardiologiya Mərkəzi) və Rusiya Xalqlar Dostluğu Universitetinin müştərək elmi şurasında doktorluq dissertasiyası müdafiə edib.

1993-2003-cü illərdə ATU-nun Biokimya kafedrasının professoru olub və eyni zamanda “Hüceyrə patologiyasının biokimyası” problem elmi-tədqiqat laboratoriyasına rəhbərlik edib. Həmçinin Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının sədr müavini vəzifəsində çalışıb.



2003-cü ildən Kanadanın Qərbi Ontario Universitetinin (indiki Qərb Universiteti) Tibb fakültəsinin dəvəti ilə bu ölkəyə köçüb və elmi tədqiqatlarını burada davam etdirib. Sonralar ABŞ-da Puerto Riko Universitetinin Tibb fakültəsinin professoru və Ürək Mitoxondrilərin Tədqiqi Elmi Laboratoriyasının direktoru vəzifəsində işləyib. 2022-ci ildə ATU-da olan S.Cavadov Biokimya kafedrasında mühazirələr oxuyub.

Professor S.Cavadov ürək biokimyası və fiziologiyası üzrə xüsusi təlim və təcrübəyə malik beynəlxalq səviyyədə tanınmış alim, 140-dan çox elmi məqalənin, kitab və kitab bölməsinin müəllifi, 3 patentin sahibi idi. Onun məqalələri yüksək impakt faktorlu jurnallarda dərc olunmuşdu.

Harada yaşamasından və işləməsindən asılı olmayaraq Azərbaycanın adını həmişə uca tutan, uzun illər çalışdığı Azərbaycan Tibb Universitetinin kollektivini unutmayan görkəmli alimin işıqlı xatirəsi onu tanıyanların qəlbində daim yaşayacaq.

**Allah rəhmət eləsin!**

# Müəllim, Həmkar, Dost

**Tibbi və bioloji fizika kafedrasına ağır itki üz verib. Ömrünün 60 ilə yaxın müddətini Tibb Universitetində fəaliyyətə həsr etmiş kafedranın baş müəllimi Axundova Fatma Ağa qızı dünyasını dəyişib.**



F.Axundova 1969-cu ildə Bakı Dövlət Universitetinin Fizika-riyaziyyat fakültəsini bitirib. Fatma müəllimə əmək fəaliyyətinə 1967-ci ildən, hələ tələbə olarkən N.Nərimanov adına Tibb İnstitutunda başlayıb, 1969-cu ildən Tibbi və bioloji fizika kafedrasında baş laborant, 1972-ci ildən müəllim, 1993-cü ildən isə baş müəllim vəzifəsində çalışıb.

Fatma müəllimə universitetin Tibbi-profilaktika və Əczaçılıq fakültələrində “Ali riyaziyyat” fənnindən (rus dilində) seminar, digər fakültələrdə biofizika fənnindən praktik məşğələləri (Azərbaycan və rus dillərində) müasir tələblərə uyğun səviyyədə aparıb. O həmçinin universitetin hazırlıq kursunda da dərs aparan müəllimlərimizdən idi.

F.Axundova Tibb Universitetində işlədiyi müddət ərzində özünü təcrübəli və zəhmətkeş bir müəllim kimi göstərib, 2 dəfə Piroqov adına II Moskva Tibb İnstitutunun ixtisasartırma kurslarında olub. Onun 25-dən çox elmi-tədqiqat işi və “Polimer kompozisiya” müəlliflik şəhadətnaməsi var. ATU-nun Tibbi və bioloji fizika, Biofiziki və bioüzvü kimya fənləri üzrə tsiklik metodik komissiyanın üzvü olmuş Fatma müəllimə uzun müddət kafedranın həmkarlar qrupuna da rəhbərlik edib.

Mərhəmətli, diqqətli, hər zaman hamıya yardım etməyə hazır olan F.Axundovanın təbəssümü və gözəl sözləri hər zaman dostluq və anlaşma mühiti yaradırdı. O nəinki həmkarlarının, həmçinin tələbələrin də qəlbində dərin izlər buraxıb.

**Allah rəhmət eləsin!**

*Tibbi və bioloji fizika kafedrasının əməkdaşları*

## Etibarsız sayılır

İsmayıllı Fərid Əhməd oğlu (qrup 218A8b) və Uralova Zöhrə Tahir qızının (qrup 218A8b) tələbə biletləri itdiyi üçün etibarsız sayılır.

## Allah rəhmət eləsin!

Elmi Araşdırmalar Mərkəzinin əməkdaşları iş yoldaşları Bahadur Həsənova qaynı **Maqsud Əmirovun** vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Bioloji kimya kafedrasının əməkdaşları kafedranın əməkdaşı, kiçik elmi işçi Hafiz Osmanova əzizi **Sahib Rəhimovun** vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Uşaq cərrahiyyəsi kafedrasının əməkdaşları kafedranın professoru Çingiz Quliyevə nəvəsi **Çingizin** vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Baş redaktor
MƏĞRUR ƏLİYEV

Müəlliflərlə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
Əlyazmalar geri qaytarılmır

“Təbib” qəzetinin kompüter mərkəzində yığılır, səhifələnir, ATU-nun “Təbib” nəşriyyatında çap olunur və universitet daxilində yayılır

ÜNVANIMIZ:
Mərdanov qardaşları - 98c
2-ci mərtəbə,
Tel.: 595-24-97
tabibqazeti@gmail.com

Lisenziya H - 022633
İndeks -0269
Sifariş - 0011
Sayı 800